*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2026, №2* *ISSN: 2664-5432*
*Səhifə: 140-145*
*https://doi.org/10.59849/2664-5432.2026.2.140*

**Bəturə ƏLİYEVA***

# AZƏRBAYCAN VƏ İTALYAN DİLLƏRİNDƏ İŞLƏNƏN MORFEMLƏRİN TARİXİ TƏŞƏKKÜLÜ VƏ ONLARA YANAŞMANIN NƏZƏRİ ƏSASLARI

## XÜLASƏ

Bu məqalədə morfemlərin hər iki dildə keçdiyi tarixi inkişaf məsələlərinə nəzər salınır. Müxtəlif dilçilərin tədqiqatında morfemlərin səciyyəvi cəhətləri və onlara yanaşma məsələləri barədə məlumat verilir. Söz yaradıcılığı prosesində morfemlərin hər iki dildə mühüm rola malik olduğu vurğulanır.Geneoloji baxımdan bir-birindən fərqli dil ailələrinə məxsus olan italyan və azərbaycan dillərində işlənən morfemlərin söz yaradıcılığında oxşar və fərqli cəhətləri müqayisə olunur.Məqalədə həm azərbaycan, həm də italyan dilçilərinin əsərlərinə istinad eilmişdir.

**Açar sözlər:** *suffiks, prefiks, söz yaradıcılığı, morfem*

Dil daim dəyişən bir quruluşdur. Başlıca sözyaratma formaları isə bunlardır: affiksasiya, birləşmə, konversiya və abbreviatura [Карапщук :1977, s.50].

XX əsrin 60-cı illərindən E.S. Kubryakovanın məşhur əsərlərində yer alan ideyalardan sonra onun davamçıları müxtəlif dillərdə və fərqli dil səviyyələrində, eləcə də söz quruluşu problemləri ilə bağlı sözün morfoloji quruluşunun funksional baxımdan öyrənilməsi problemini əsas vəzifələrdən biri kimi qarşıya qoydular.

Dildə artıq mövcud olan elementlərdən yeni sözlərin əmələ gəlməsi şəklində təzahür edən söz yaradıcılığı hadisəsinin, məlum olduğu kimi, hər bir dil üçün özünəməxsus struktur qanunauyğunluqları vardır. Söz yaratmaq dilin lüğət tərkibini genişləndirməyin əsas yollarındandır. Hər bir konkret dil üçün fərqli olan bu prosesin özəlliyi nitq hissələrinin quruluşundan, xüsusiyyətlərindən və səciyyəvi cəhətlərindən asılıdır [Мешков:1976, s.64]. Affiksasiya prefiks və ya şəkilçi əlavə etməklə yeni sözlərin əmələ gəlməsi üsuludur, əlavə edildikdə bir çox hallarda nitq hissəsini dəyişir. Affiksasiya yolu ilə yaranan törəmə sözlər söz əmələ gətirmə qaydasının bir və ya bir neçə formada nəticəsi ola bilər [Карапщук :1987, s.67].

Kökləri sadə əsaslar üzərində qurulan və tək törəmə affiksin işlədilməsi ilə əmələ gələn törəmə sözlər birinci dərəcəli törəmə kimi xarakterizə olunur. Yeni söz yaradılmasının iki ardıcıl mərhələsi ilə əmələ gələn törəmə sözlər ikinci dərəcəli törəmə dərəcəsinə malikdir [Гируцкий: 2003, s.101]. Çox sayda şəkilçi və prefiks törəmələrinin öyrənilməsi onların arasında əhəmiyyətli fərqlərin aşkar edilməsi və xüsusi qanunauyğunluqların müəyyən edilməsi üçün şərait yaradır.

* AMEA-Nəsimi adına Dilçlik institutunn Hind-Aropa dilləri şöbəsinin böyük elmi işçi. Email: eliyevabeture201@gmail.com

Məsələn, tədqiqatçılar qeyd edirlər ki, müasir ingilis dilində şəkilçi, əsasən, isim və sifətlərin əmələ gəlməsi üçün, prefiks isə feilin əmələ gəlməsi üçün xarakterikdir. Fərqlilik həm də şəkilçi və prefiksin semantik strukturunda müxtəlif məna tiplərinin oynadığı rola əsaslanır [Хидекель: 1974, s.244].

Sözün morfoloji quruluşunun funksionallığı məsələsi İ.A. Boduen de Kurtene tərəfindən dilin assosiativ hadisələrinin öyrənilməsinin geniş kontekstində "*zehni fərqlərlə*", "*müəyyən psixi nüansların (çalarların) təmsilləri ilə*", "*zehni təsir*"lə, "*fonetik fərqin forma və sözlərin bəzi psixi fərqliliyi ilə əlaqəli olduğu, yəni bəzi morfoloji və semasioloji fərq*"in olması fikirlərində əks olunmuşdur [Куртенэ: 1963, s. 301].

Morfemlərin geniş tədqiqi müasir dövrdə dilçilik elminin qarşısında duran əsas məsələlərdəndir və morfem nəzəriyyəsinin tərkibində nəzərdən keçirilir. Müasir morfem nəzəriyyəsinin ümumi nəzəri müddəalarını aşağıdakı tezislərdə qeyd etmək olar:

1. Morfem "*sözün minimum əhəmiyyətli hissəsidir*" [Шанский: 1968, s.79]; "*müəyyən məzmunun müəyyən göstəriciyə aid edildiyi və eyni xüsusiyyətə malik daha sadə vahidlərə bölünməyən" "elementar ikitərəfli dil vahidi*"dir [Улуханов: 1977, s.164]; "*Müxtəlif hallarda həm məna, həm də səs ifadəsi baxımından müəyyən yaxınlıqla xarakterizə olunan ən sadə əhəmiyyətli dil vahidi*"dir [Потиха: 1970, s.14].

2. Morfem sözdən asılı vahiddir, "*sözün formalaşdırıcı elementi*" , onun hissəsidir. Morfem yalnız sözün daxilində mövcuddur ki, bu da dildə sintaqmatik münasibətlərin təzahürüdür. Digər tərəfdən, morfem sözün bir hissəsi olmaqla, fonem adlanan daha kiçik, lakin onsuz əhəmiyyətsiz elementlərə parçalanır. Sonuncu, öz növbəsində, onun xarici qabığını təşkil edir. Bu o deməkdir ki, morfem digər dil vahidləri kimi xəttidir: morfemə bölünmüş söz; sözlərin birləşməsindən ibarət olan ifadə; ifadələrə və ayrı-ayrı sözlərə bölünən cümlə.

3. Morfem sözün bir hissəsi kimi, sonuncudan fərqli olaraq, həmişə təkrarlana bilən dil vahididir. Sözlər təkcə təkrarlanmır, həm də danışıq prosesində danışanlar tərəfindən müəyyən söz əmələ gətirmə modellərinə görə yaradılır.

4. Morfem dil vahidi kimi, A.A. Reformatskinin terminologiyasına görə, semasioloji xüsusiyyətlərə malikdir, yəni anlayışların ifadə funksiyasını daşıyır: maddi tərəf - sözlərin kökləri və qeyri-maddi - affikslər. "*Bu funksiya morfemdə öz xalis formasında (dildə nominal funksiya yerinə yetirərək, adı çəkilən obyekt, hadisə, hərəkət, xüsusiyyət və s. məfhumu ifadə edə bilən və ya ifadə etməyən sözdən fərqli olaraq) meydana çıxır. Bu baxımdan morfem yalnız sözün tərkib hissəsi kimi əhəmiyyətlidir, ondan kənarda deyil*" [Современный русский язык: 2002, s.451].

Ümumiyyətlə,qeyd etmək lazımdır ki, Azərbaycan dilçiliyində sözdüzəldici şəkilçilərin söz yaradıcılığında sistemli şəkildə tədqiqi professor S.Cəfərovun adı ilə bağlıdır. 1949-cu ildə nəşr olunan "Müasir Azərbaycan dili" (Adlar və onları

düzəldən şəkilçilər) əsərində dilimizdəki adlardan (adlar dedikdə - isimlər, sifətlər, say, əvəzlik, zərflər nəzərdə tutulur) düzələn adlardan, feillərdən ad düzəldən şəkilçilərdən bəhs edilir [Mahmudova: 2025, s.17].

S.Cəfərova görə dildə işlənən şəkilçilər 1.leksik və qrammatik əlamətlərinə görə 2.məhsuldarlığına və qeyri mehsuldarlığına 3.törəmə yollarına görə 4 fonetik xüsusiyyətlərinə görə 5 məna ardıcıllığına görə bir-birindən fərqlənir [Cəfərov: 1960, s.26].

Dildə *milliləşdirmə adlanan* bir sözyaratma prosesi də mövcuddur. Bildiyimiz kimi, hər bir dil həm öz daxili imkanları ,həm alınma sözlər hesabına zənginləşir. Azərbaycan dilçiliyində də tarixən belə ənənə olub ki, alınma sözləri dilmizin öz qayda-qanununa tabe edərək milliləşdirmişik. Məsələn, rus dilindən, ərəb və fars dillərindən alınmış bir sıra sözlər Azərbaycan dilinin qayda və qanunlarına o qədər dəqiqliklə uyğunlaşdırılmışdır ki, onların alınma olduğu bəlli olmur. Məsələn, *qəzet, aşkar, mağaza, fayda, adam, maşın* və s. Bu nümunələrin sayını artırmaq da olar. [Mahmudova: 2025, s.250].

Morfem dilin inkişafı zamanı dəyişə bilən tarixi kateqoriyadır. Morfemin bu xüsusiyyəti onu digər dil kateqoriyaları və formaları ilə birləşdirir. Müasir və etimoloji nöqteyi-nəzərdən bəzi sözlərdəki morfemlərin bölünmə sərhədlərini müəyyən etmək çətin olur, bu, dilin tarixi inkişafı prosesində müxtəlif səbəblərdən (məhsuldar şəkilçilərin işləkliyini itirməsi, və ya söz tərkibinin dəyişilməsi və s.) morfemin sərhədlərinin dəyişilməsi ilə izah oluna bilər.

Morfemlərin semantik və funksional xüsusiyyətləri ilə bağlı fərqli məqamlar müxtəlif dillərin morfem strukturunun müqayisəli tədqiqi zamanı daha aydın görünür. Bu hal Azərbaycan və italyan dillərində morfemlərin təhlili zamanı da özünü göstərir.

İtalyan dilinin morfologiyası fransız, katalon, ispan və portuqal dillərinin morfologiyası ilə çox oxşardır. Klassik latın dilindən fərqli olaraq, italyan dili analitikləşməyə meyilli olması ilə diqqət çəkir. Xüsusən, latın dilindəki nominal tənəzzül sistemi demək olar ki, tamamilə aradan çıxmış, artikllər meydana çıxmış, feilin çoxlu sayda analitik formaları yaranmış, söz sırasına müəyyən məhdudiyyətlər əlavə edilmişdir. Digər roman dilləri kimi, italyan dili də inkişaf etmiş fleksiya ilə xarakterizə olunur.

İtalyan dilində affiksal morfemlərin tədqiqi XIX əsrdə linqvistik təhlilin ilkin mərhələlərindən başlayaraq müasir dövrümüzə qədər davam edərək zaman keçdikcə inkişaf etmişdir. Affiks morfemləri-prefikslər, şəkilçilər, infikslər və sirkumfikslər italyan dilinin morfoloji strukturunun əsas komponentləridir və onların öyrənilməsi sözlərin necə əmələ gəldiyini və mənalarının necə dəyişdirildiyini anlamaq üçün həm nəzəri, həm də təsviri dilçilikdə daha geniş səylərin bir hissəsi olmuşdur.

A.Benvenuti və Q.Volpe kimi alimlərin əsərləri italyan morfologiyasını sistemləşdirməyə və affiksal morfemləri təsnif etməyə kömək edir. Q.Volpe özünün "İtalyan dilinin qrammatikası" əsərində affiksal morfemlərə və fleksiyaya

diqqət yetirmiş, o cümlədən şəkilçilərin ətraflı təsvirini vermişdir. Hələ intibah dövründə Giovanni Pico della Mirandola və Antonio de Nebrija kimi alimlər dil strukturu ilə maraqlanmış, lakin bu dövrdə affiksal morfemlərin ətraflı təhlili diqqətdən kənarda qalmışdır. XVIII-XIX əsrlərdə italyan dilinin qrammatik normalarının sistemləşdirilməsi baş verdi. Bu zaman affiksal morfemlərin təhlili, xüsusən də feilin birləşmələri və isim fleksiyaları kontekstində fəal inkişaf edirdi.

İtalyan dilində affiksal morfemlərin tədqiqi, italyan dilinin birbaşa mənşəyi olan latın dili tarixindən tam ayrıla bilməz. Latın dili zəngin morfoloji strukturlara, o cümlədən affikslərə malik yüksək flektiv dil olub və bu dil roman dillərinin, o cümlədən italyan dilinin affiksal morfemlərinin əsasını təşkil edib.

Dilçilər latın əsaslı morfemlərdən kənara çıxaraq, xüsusi olaraq italyan xalq dilində işlənmiş morfemlərə keçməklə söz əmələ gəlməsində affikslərin rolunu araşdırmağa başladılar. Bəzi erkən tədqiqatlar şəkilçilərin (məsələn, "-ino", "-accio", "-etto" və "-one" kimi) kiçiltmə, qüvvətləndirici və alçaldıcıları necə əmələ gətirdiyinə diqqət yetirirdi. İtalyan filoloqu Amedeo Benedetti (1865–1944) latın affiksal morfemlərinin müasir italyan leksikonuna təsirini bu istiqamətdə araşdırmışdır.

Müasir dövrdə italyan dilində affiksal morfemlərin öyrənilməsində fərqli tendensiyalar mövcuddur. Bu gün italyan dilində affiksal morfemlərin öyrənilməsi morfosintaksis, fonologiya və praqmatikadan əldə edilən fikirləri özündə birləşdirərək inkişaf etməkdə davam edir. Alimləri xüsusilə italyan dialektləri daxilində və italyan dilinin regional formaları arasında morfoloji variasiya maraqlandırır, çünki dialektlərdə fərqli affiksal morfemlərə təsadüf olunur.

İtalyan dilində affiksal morfemlərin tədqiqi uzun və zəngin bir tarixə malikdir və dil nəzəriyyəsində və tarixi dəyişikliklərdə daha geniş tendensiyaları əks etdirir. Erkən latın təsirlərindən tutmuş generativ qrammatika və koqnitiv dilçilik kimi müasir dil nəzəriyyələrinin inkişafına qədər italyan dilindəki affikslər söz əmələ gəlməsi, morfologiya və sintaksis anlayışının

etdikcə, italyan affikslərinin öyrənilməsi müasir dilçilikdə canlı və dinamik sahə olaraq qalır.

Bu gün affiksal morfemlər italyan dilinin morfoloji təhlilinin mühüm hissəsi olmaqda davam edir. Tədqiqat affikslərin təsnifatı (məsələn, şəkilçilər, prefikslər, infikslər), onların funksional xüsusiyyətləri (isimlərin, sifətlərin, feillərin əmələ gəlməsi), dialektlərin və dildəki dəyişikliklərin affikslərin işlənməsinə təsiri, latın dilindən alınma affikslərin müasir italyan dilində tarixi təkamülü kimi məsələlərin təhlilini əhatə edir. Qeyd edək ki, prefikslər yəni ön şəkilçilər azərbaycan dili ilə müqayisədə italyan dilində daha çox işlənir.

Geneoloji baxımdan yəni qohum əlaqələrinə görə italyan və azərbaycan dilləri fərqli dil ailələrinə aid olduğundan bu xüsusiyyət onların morfoloji quruluşunda da özünü göstərir.Belə ki, italyan dilində feillər zaman, şəxs və kəmiyyət baxımından təsriflənir. Məsələn, indiki zamanda parlare (danışmaq) parlo (mən danışıram), parli (sən danışırsan), parla (o danışır). İsimlər və sifətlər

cins (kişi və ya qadın) və say (tək və ya cəm) bildirmək üçün fleksiya olunur. Məsələn, *amico (dost*) cəm halında *amici (dostlar)* olur. İtalyan dili zəngin törəmə morfologiyasına malikdir, tez-tez yeni sözlər yaratmaq üçün prefiks və şəkilçilərdən istifadə olunur. Məsələn, *bella (gözəl) bellezza (gözəllik)* ola bilər.

Azərbaycan dili aqqlütinativdir, yəni qrammatik əlaqələr köklərə bir sıra şəkilçilər əlavə etməklə göstərilir. Aqqlütinativ (iltisaqi) dillərin morfologiyası zəngin morfoloji göstəriciləri ilə fərqlənirlər. Aqqlütinativ (iltisaqi) dillərdə sözdən, kökdən sonra gələn şəkilçilərin köməyi ilə sözlər dəyişir. Sözə sözdüzəldici şəkilçi qoşulduqda yeni mənalı söz yaranır. Sözdəyişdirici şəkilçi artırıldıqda isə sözün mənasında deyil, formasında dəyişiklik əmələ gəlir. Azərbaycan dilinə məxsus olan sözlərə şəkilçi qoşulduqda ahəngə uyğun olaraq şəkilçi, əsasən, damaq ahənginə və dodaq ahənginə tabe olur. Hər iki dildə morfemlərin tarixi təşəkkülünə nəzər saldıqda onun şahidi oluruq ki, morfemlər dilin zənginləşməyində mühüm rola malikdir. Həm azərbaycan, həm italyan dillərində morfemlərin müxtəlif növləri söz yaratma prosesində fəal iştirak edir.

**ƏDƏBİYYAT:**

1. Каращук, П.М. Словообразование английского языка. – М.: Высшая школа, – 1977. – 303 с.

2. 122Мешков, О.Д. Словообразование современного английского языка. – М.: Наука, – 1976. – 312 с.

3. Гируцкий, А.А. Общее языкознание: учеб. пособие для студентов вузов. – 3-е изд., стер. – Мн.: Тетра-Системс, – 2003. – 304 с.

4. Хидекель, С.С. Система словообразования в современном английском языке. – М.: Высшая школа, – 1974. – 352 с.

5. Бодуэн де Куртенэ, И.А. Избранные труды по общему языкознанию. Т. I. – М.: Изд-во Академии наук СССР, – 1963. – 384 с.

6. Шанский, Н.М. Очерки по русскому словообразованию. – М.: Изд-во Московского университета, – 1968. – 310 с.

7. Улуханов, И.С. Словообразовательная семантика в русском языке и принципы её описания. – М.: Наука, – 1977. – 256 с.

8. Потиха, З.А. Современное русское словообразование: пособие для учителя. – М.: Просвещение, – 1970. – 244 с.

9. Современный русский язык. Теория. Анализ языковых единиц: учебник для студентов высш. учеб. заведений: в 2 ч. Ч.1 / Е.И. Диброва, Л.Л. Касаткин, Н.А. Николина, И.И. Щеболева; под ред. Е.И. Дибровой. – М.: Академия, – 2002. – с.442–533.

10. Mahmudova Q.Ç "Söz yaradıcılığı "(türk dillərinin materyalları əsasında) "Elm və təhsil" Bakı-2025

11. Cəfərov S. "Azərbaycan dilində söz yaradıcılığı" ADU, 1960

## THE HISTORICAL FORMATION OF MORPHEMES USED IN AZERBAIJANI AND ITALIAN LANGUAGES AND THE ORETICAL FOUNDATIONS OF APPROACHES TO THEIR STUDY

**SUMMARY**

This article examines the historical development of morphemes in both languages. It provides information on the specific features of morphemes and approaches to them in the research of various linguists. It emphasizes that morphemes play an important role in the word formation process in both languages. The similarities and differences in word formation of morphemes used in Italian and Azerbaijani languages, which belong to different language families from a genealogical point of view, are compared. The article refers to the works of both Azerbaijani and Italian linguists.

**Key words:** *suffix, prefix, word creation morpheme*

## ИСТОРИЧЕСКОЕ ФОРМИРОВАНИЕ МОРФЕМ, ИСПОЛЬЗУЕМЫХ В АЗЕРБАЙДЖАНСКОМ И ИТАЛЬЯНСКОМ ЯЗЫКАХ, И ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ПОДХОДОВ К ИХ ИЗУЧЕНИЮ

**РЕЗЮМЕ**

В данной статье рассматривается историческое развитие морфем в обоих языках. Приводится информация о специфических особенностях морфем в исследованиях различных лингвистов и их подходах. Подчеркивается, что морфемы играют важную роль в процессе словообразования в обоих языках. Сравниваются сходства и различия в словообразовании морфем, используемых в итальянском и азербайджанском языках, принадлежащих к разным языковым семьям с генеалогической точки зрения. В статье приводятся ссылки на работы как азербайджанских, так и итальянских лингвистов.

**Ключевые слова**: *суффикс, префикс, словаобразование, морфема*